UOT 930

AYDIN MƏMMƏDOV
BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
aydin.mmmdov.67@ mail.ru

XX ƏSRİN İKİNCİ YARISI – XXI ƏSRİN ƏVVƏLLƏRİ RUSİYA TARİXŞÜNASLIĞINDA ƏHALİNİN TƏBİİ ARTIM TEMPİNİN AZALMASI İLƏ BAĞLI TARİXİ DEMOQRAFİYANIN AKTUAL PROBLEMLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/185-192

Ailə cəmiyyətin əsas nüvəsi, ən mühüm, vacib sosial institutudur. Təsadüfi deyildir ki, əhalinin təbii artım dinamikasının əsas komponentini məhz hər bir ailədə uşaqların dünyaya gəlişi təşkil edir. Elə əhalinin çoxalma rejiminin xarakterini də əsasən doğumun hansı səviyyədə olması və hər bir xalqa məxsus milli-mənəvi dəyərləri, o cümlədən tarixi adət-ənənələri müəyyən edir. Digər tərəfdən, cəmiyyətdə əhalinin təbii artımının hansı səviyyədə təmin olunması, uşaqların tərbiyəsi, heç bir psixoloji zədə almadan sağlam mühitdə böyüməsi, cəmiyyətə uğurla inteqrasiya olunması səviyyəsi, o cümlədən həyatın ümumi rifahı bilavasitə ailə münasibətlərinin, nikah bağlarının möhkəmliyindən asılıdır. Təəssüf ki, XX əsrin ikinci yarısından başlayaraq, ailənin təməl prinsiplərinə xələl gətirən boşanmaların sayının xeyli dərəcədə artması, son vaxtlar isə geniş vüsət alması, ailədaxili əlaqələrin nəzərəçarpacaq dərəcədə zəifləməsi əhalinin təbii artımının təmin olunması məsələsində ciddi problemlərin meydana gəlməsinə səbəb olmuşdur.

Açar sözlər: ailə, əhali artımı, depopulyasiya, tarixi demoqrafiya, Rusiya tarixşünaslığı.

Giriş. Artıq XX əsrin ikinci yarısından başlayaraq,bir qrup tədqiqatçılar, əhalinin təbii artımının təmin olunması ilə bağlı aktual problemlərin həlli üçün demoqrafik proqnozlaşdırma və modelləşdirmə metodlarından, eləcə də tarixçi-demoqraflar tərəfindən əhalinin təbii artım prosesində baş verən ciddi dəyişikliklərin tarixi-demoqrafik müstəvidə tədqiq edilməsini vacib hesab edirlər. XX əsrin ikinci yarısından başlayaraq müşahidə olunan ciddi tarixi-demoqrafik dəyişikliklərin təhlili əsasında alimlər belə bir qənaətə gəlmişlər ki, XX əsrdə Rusiyada evliliyin təkamülü nəinki, Rusiya əhalisinin yaş piramidasını deformasiya edən, eləcə də ardıcıl nəsillərin sayında disbalans yaradan sosial kataklizmlərin sayəsində baş vermişdir. 1990-cı illərdə baş verən ictimai-siyasi kataklizmlərin təsiri ilə boşanmaların sayındakı ifrat artım, yeni ailə həyatı quranların sayında isə kəskin azalmalar ailə və nikahla bağlı məsələlərə mənəvi dəyərlər prizmasından yenidən baxılması, öyrənilməsi ilə xarakterizə olunurdu.

XX əsrin ikinci yarısı Rusiya tarixşünaslığında əhalinin təbii artım tempinin azalması ilə bağlı tarixi demoqrafiyanın aktual problemləri. Bütün XX əsr boyunca, xüsusən də XX əsrin ikinci yarısından üzü bəri sənayedə başlanan köklü dəyişikliklər demoqrafik keçid, demoqrafik inkişaf modelində ciddi dəyişikliklərin baş verməsi ilə nəticələndi. Belə ki, bir çox tədqiqatçıların fikrincə, XX əsrin ikinci yarısından başlayaraq Rusiya əhalisinin təbii artımının azalması ilə bağlı müşahidə olunan ciddi dəyişikliklərin səbəblərini əslində XX əsrin birinci yarısında cərəyan edən son dərəcə təlatümlü hadisələrlə – iki dünya müharibəsi, o cümlədən digər çoxsaylı mühüm tarixi olaylarla yadda qalan mürəkkəb və ziddiyyətli zaman kəsiyində axtarmaq lazımdır. Bu və bir çox digər tədqiqatçıların fikrincə ümumiyyətlə, müharibələr gender balansının əhəmiyyətli dərəcədə pozulmasına, ölkə əhalisinin tərkibində qadınların üstünlük təşkil etməsinə, "kişi qıtlığına", uşaqlı dul qadınların, tək valideynli ailələrin və subayların sayının artmasına səbəb oldu. Məhz müharibə və müharibədən sonrakı illərdə əhali arasında evlilik fəallığı kəskin şəkildə azalır, ailə, o cümlədən nikah institutunun sabitliyi radikal surətdə pozulur. Müharibələr iqtisadiyyatı hərbi relslər üzərinə keçirdiyinə görə, onun ümumi inkişafına ciddi xələl yetirir, ölkə əhalisinin zəruri istehlak malları ilə normal təminatına uzun zaman kəsiyində maneələr yaradır. Təbii ki, müharibələrin bu və bir çox digər acı nəticələri ölkə əhalisinin demoqrafik taleyindən də təsirsiz ötüşmür. Aclıq, soyuq, ölümsaçan xəstəliklərlə müşa-

yiət olunan müharibələrin insan psixikasına son dərəcə dərin neqativ emosional təsiri qadınların fertillik (bir qadının hamilə qala bilməsi üçün tibbi şərtdir. – A.M.) fəaliyyətinə neqativ təsir göstərir. XX əsrin ikinci yarısı Rusiya tarixşünaslığında ölkə əhalisinin təbii artımının azalması ilə bağlı məsələlərə D.Şelestov, A.Vişnevski, B.Urlanis, M.Tols, Y.Bjilyanskiy və bir çox peşəkar demoqraflar toxunmuşdur.

Tanınmış demoqraf D.Şelestov yazır ki, vətəndaş müharibəsi başa çatdıqdan və müdaxiləçilərin məğlubiyyətindən sonrakı ilk illərdə demoqrafik kompensasiya hesabına doğum artımı baş verdi. Qeyd etmək yerinə düşərdi ki, dünya və vətəndaş müharibələri (1914-1920) zamanı ölkənin verdiyi insan itkiləri 20 milyon nəfərdən çox olmuşdur [7, s.138]. Lakin, müharibədən əvvəlki səviyyəyə (1913-cü ildə 45,5%) ancaq 1925-ci ildə 44,5%-lə qismən yaxınlaşa bildi. D.Şelestov fikrinə davam edərək yazır ki, köhnə ictimai münasibətlərin çox kəskin formada pozulması, dərin sosial-iqtisadi dəyişikliklər, şəhərlərin sürətli böyüməsi, elmi-texniki tərəqqinin inkişafı və urbanizasiyalaşmanın sürətlənməsi fonunda kəndlərin yenidən qurulması... doğum səviyyəsinə təsir göstərməyə bilməzdi. Bütün bu amillər əhalinin təbii artımının azalmasına səbəb olan konkret tarixi şəraitin yaranmasına, demoqrafik proseslərin məhz həmin, əvvəlkindən kəskin fərqli bir istiqamətdə gedişiylə nəticələnmişdir. Daha sonra faşist Almaniyasının ölkəyə hücumu onun normal demoqrafik inkişafına ağır zərbə vurdu. 1941-1945-ci illərdə xalqın cəbhələrdə qazandığı qələbə böyük fədakarlıqlar tələb edirdi. Təkcə faistlərin arxa cəbhəsində 20 milyondan çox ölkə vətəndaşı həlak oldu. Müharibə illərində əhalinin ölüm nisbəti artdı, doğum nisbəti isə kəskin surətdə azaldı [16, s.169-170]. Müəllif belə qənaətə gəlir ki, ölkədə məhz müharibələrin səbəb olduğu konkret tarixi şərait nəticəsində 1942-1946-cı illərdə 1938-1941-ci illərdəki uşaqların yarısı qədər uşaq doğulub [16, s.170].

D.Şelestov digər tanınmış demoqraf V.Minayevlə birgə yazdıqları "Partlayış, yoxsa fəlakət" adlı tarixi-demoqrafik təhlillərlə zəngin, son dərəcə maraqlı elmi məqalədə belə qənaətə gəlirlər ki, bütövlükdə ölkə əhalisinin demoqrafik durumuna, demoqrafik proseslərin gedişinə, sosial-demoqrafik böhranın yaranmasına konkret zaman kəsiyinin, həmin dövrün tarixi, ictimai-siyasi, sosial-iqtisadi, tarixi-mədəni və digər bir çox amilləri son dərəcə ciddi təsir göstərdiyinə görə, bu proseslərin daha obyektiv araşdırılması üçün onların tarixi-demoqrafik müstəvidə öyrənilməsi ən optimal variantdır. Onların fikrincə hələ ötən əsrin 1930-cu illərdə Rusiyada baş vermiş məcburi kollektivləşmə, aclıq və kütləvi repressiyalarla müşayiət olunan tarixi proseslər ölkə əhalisinin say və reproduktivliyinin kəskin şəkildə azalmasına, ciddi surətdə təsir göstərmişdir [17, s.88].

Y.Kukuşkinin da elmi yaradıcılığında (Кукушкин Ю. Судьба народа – судьба страны // Вестник Московского университета. Серия История, № 5, 1993, s.3-5; yenə onun. Воспитание историей // Новая и новейшая история, № 6, 1986, s.13-19 və d.) müharibələrin ölkənin demoqrafik balansının əhəmiyyətli dərəcədə pozulmasına göstərdiyi mənfi təsirlər və onların acı nəticələri tədqiq olunmuşdur.

Sözügedən problemə tarixi-demoqrafik aspektdən yanaşan M.Tols yazır ki, XIX əsrin sonları – XX əsrin əvvəllərində Rusiyada ölkə əhalisinin əksəriyyətini təşkil edən kəndlilərin nəinki erkən nikaha daxil olmaları, bu prosesin kütləvi şəkildə həyata keçirilməsi tarixən təbii hal olmuş, demoqrafik fona müsbət təsir göstərmişdir. Subaylılığın aşağı səviyyəsi də əsasən kəndlərdə müşahidə olunurdu. Belə ki, sözügedən dövrdə 50 yaşına qədər kişi və qadınların yalnız 10%-i ömürlərinin sonuna kimi evlənmir, subay olaraq qalırdılar. Müəllifin fikrincə, evlilik prosesində köklü dəyişikliklər Sovet hökuməti tərəfindən edilmişdir. Belə ki, yeni hökumət yarandığı ilk günlərdən ailə-məişət məsələlərində qadınların mövqelərinin aşağı salınmasına qarşı qətiyyətli mübarizə aparmışdır [8, s.138-153]. M.Tols həmmüəllifi olduğu "Nikah münasibətlərindəki dəyişikliklər və onların əhalinin təbii artımına təsiri" adlı elmi məqaləsində yazır ki, Sovet hökumətinin nikah və evlilik sahəsində ailə dəyərlərinə, tarixən formalaşmış ər-arvad münasibətlərinə, köhnə həyat tərzinin qalıqlarına qarşı yönəlmiş qanunvericilik siyasəti cütlüklər tərəfindən nikahın bağlanması və pozulmasına dair qərarların azad şəkildə qəbul edilməsinə heç də az təsir göstərmədi. Nəticədə bir çox xalqlarda, o cümlədən azərbaycanlılarda 16-19 yaşda nikaha daxil olanların sayı yarıbayarı, gürcü və ermənilərdə isə 60-70% aşağı düşdü. Eyni zamanda, yaşlı qadınların evlənmə ehtimalı artdı və hər yaş nəslindən olan (bu isə nəticə etibarı ilə fertil qabiliyyəti aşağı olan qadınların çoxalmasına gətirib çıxardı. – A.M.) qadınların daha çox sayda ailə həyatı qurmalarına şərait yaratdı [9, s.161]. M.Tols XX əsrin ikinci

yarısı Rusiya tarixşünaslığını sözügedən problemin tədqiqinə dair bir çox əsərlərlə (Толц М., Вишневский А. Изменение процессов формирования семьи // Эволюция семьи и семейная политика. Москва, «Наука», 1992, s.9-14; yenə onun. Продолжительность брака // Народонаселение: Энциклопедический словарь. Москва, «БРЭ», 1994, s.357-358.; yenə onun. Разводимость // Народонаселение: Энциклопедический словарь. Москва, «БРЭ», 1994, s.367-370) zənginləşdirdi. Eyni fikirlərə A.Volkovun 1986-cı ildə nəşr olunmuş "Ailə – demoqrafiyanın obyekti kimi" adlı məşhur monoqrafiyasında da rast gəlmək olar. Ailə-nikah münasibətlərinə tarixi demoqrafik aspektdən yanaşan A.Volkov əhalinin təbii artım tempinin aşağı düşməsi səbəblərini urbanizasiyalaşmanın güclənməsi, müasir sənaye cəmiyyətlərində qadınların sosial fəallığının artması ilə izah edir [3, s.115-127]. Oxşar fikirlərə İ.İlyinanın 1977-ci ildə nəşr olunmuş "Müharibələrin sovet qadınlarının nikah səviyyəsinə təsiri" adlı məqaləsində də rast gəlmək olar [6, s.50 -51].

Bir qrup tədqiqatçıların fikrincə, əhalinin təbii artım problemlərinin həlli ilə bağlı nəzərdə tutulan mühüm demoqrafik tədbirlərin həyata keçirilməsindən əvvəl konkret inkişaf ssenarisi və modelinin mümkünlüyünü hesablamağı və onların həyata keçirilməsindən sonra isə eyni müddət ərzində əldə edilmiş nəticələri müqayisə etməyi təklif edirlər. Bu tədqiqatçıların böyük bir qismi əhali artımına yönəlmiş demoqrafik siyasətin əsas məğzinin çoxuşaqlı ailələrin maddi durumunun yüksəldilməsi, o cümlədən belə ailələrin ehtiyac duyduğu bir sıra istehlak mallarının qiymətlərinin məqsədyönlü surətdə aşağı endirilməsi ilə sıx surətdə bağlı olduğunu iddia edirdilər. Bu tədqiqatçıların fikrincə, cəmiyyətdə istehlaka sistemli təsir funksiyasını yerinə yetirən əlverişli qiymət siyasəti əhali artımına yönəli demoqrafik proseslərin stimullaşdırılmasında kifayət qədər əhəmiyyətli rol oynaya bilər və etməlidir. Y.Bjilyanskiy 1980-ci ildə nəşr olunan "Demoqrafik proseslərin idarə olunması" adlı elmi əsərlər toplusunda dərc etdirdiyi "Əhali məskunlaşmasının inkişafının idarə edilməsinin bəzi iqtisadi problemləri" adlı elmi məqaləsində belə qənaətə gəlir ki, ailədə uşaqların sayı bilavasitə əhalinin maddi durumu ilə birbaşa bağlıdır. O, sayının əhalinin artırılması üçün belə hesab edir ki, çoxuşaqlı ailələrin ehtiyac duyduğu mühüm istehlak mallarının qiymətləri aşağı endirilməlidir: "Mədəni-maarif və əyləncə müəssisələrinin uşaqlara göstərdiyi xidmətlərə, o cümlədən uşaqlar üçün olan istehlak mallarının qiymətlərinin aşağı salınması cəmiyyətimizin, ümumən sosial-iqtisadi siyasətimizin, xüsusən də demoqrafik siyasətimzin qayəsidir" [1, s.35]. Alimin fikrincə, bu formanın ən mühüm üstünlüyü onun dəqiq, ünvanlı formada hədəflənməsidir. O, yazır ki, uşaqlar üçün olan, nəzərdə tutulan istehlak malları və xidmətlər uşaqların özləri tərəfindən istehlak edilməlidir. Belə ki, ailə büdcəsinə edilən hər hansı maliyyə əlavələri, pullar, müxtəlif yollarla, müxtəlif istiqamətlərdə xərclənə bilər. Müəllif təəssüflə bildirir ki, əhali uşaqlar üçün nəzərdə tutulan istehlak mallarını alarkən, yaxud uşaqlar üçün nəzərdə tutulan xidmət və güzəştlərdən yararlanarkən bu barədə kifayət qədər məlumatlandırılmırlar [1, s.35-36].

Ailədə uşaqların sayı ilə məşhur rus demoqrafı A.Vişnevskinin fikirləri də maraq doğurur. Əhalinin təbii artım prosesində baş verən problemlərə tarixi-demoqrafik müstəvidə yanaşan alim yazır ki, yüzillər boyu Rusiyada çoxuşaqlılıq ailənin ciddi təməl prinsiplərini təşkil edib. Pravoslav dini: "Kimin övladı yoxdursa günah içində yaşayır" – deyərək, ailədə uşaqların dünyaya gəlişini nikah və cinsi münasibətə yeganə bəraət qazandıran hal kimi qəbul edib. O, tarixən Rusiyada "Tanrının sayılıb-seçilən bəndəsi çox uşağı olan kəslərdir", yaxud "Kimin bir oğlu varsa oğul deyil, iki oğul yarımoğul, üç oğul əsl oğuldur" deyimlərinə istinad edərək, çoxuşaqlılıqla bağlı fikirlərinə aydınlıq gətirir [2, s.267-268]. Lakin, A.Vişnevski etiraf edir ki, tarixən Rusiyada çox uşaq sahibi olmağın faydaları ona heç o qədər də tam aydın deyildir [2, s.324-325]. Fikrini davam etdirərək müəllif yazır: "Lakin, biz çoxuşaqlı ailələrin iqtisadi üstünlükləri məsələsini əhalinin təbii artımı məsələsi ilə əlaqələndirmək cəhdlərinə rast gələ bilmədik" [2, s.259]. Əhalinin təbii artım problemləri ilə bağlı tarixi-demoqrafik müstəvidə uzun uzadı obyektiv araşdırmalardan sonra belə bir nəticəyə gəlir: "Müasir insanın uşaqları sadəcə düşünmədən, müəyyən götür-qoy etmədən olmur, o, özünə uşaq sahibi olmaq istəyib-istəmədiyi, neçə və nə vaxt olması sualını verir, başqa sözlə, nəsil sferasında qarşısına müəyyən məqsədlər qoyur". A.Vişnevski ailə planlaşdırılması məsələsinin cəmiyyətin nəzarətindən çıxdığını, bu məsələnin bir növ hər kəsin özünün şəxsi işi hesab etdiyini, ciddi problem kimi qabardır: "...və öz qarşısına belə bir məqsəd qoymağı və ona nail olmağı həm müasir insanın

özü həm də ətrafındakı hər kəs onun şəxsi işi hesab edərək, ailəsindən kənar heç kimə aidiyyəti olmaması fikrini tam normal bir şəkildə qəbul edir" [2, s.331-332].

Məşhur rus alimi B.Urlanis demoqrafiyanın əhalinin təbii artımının təmin olunması ilə bağlı aktual problemlərindən bəhs edərkən, ailələrin dağılmasının yüksək səviyyədə olmasını müasir dövrdə tarixi demoqrafiyanın ən aktual problemlərdən biri hesab edir. O, "Atasızlıq" adlı məşhur əsərində yazır ki, demoqraflar ailəni valideynlərdən və onların uşaqlarından ibarət tam normal, o cümlədən uşaqlardan və təkvalideynli ailələrdən təşkil olunmuş (yəni valideynlərdən birinin olmadığı – A.M.) iki kateqoriyadan ibarət olduğunu yazırlar, yaxud fərqləndirirlər. Çox vaxt ailədə olmayan valideyn qismində ata çıxış edir. Belə hallarda təbii ki, uşaqları böyütməyin bütün yükü tam ağırlığı ilə ananın üzərinə düşür. O, 1967-ci ildə (bütün ölkə üzrə – A.M.) qeydə alınmış boşanmaların sayının 646 min nəfər olmasına və yenidən ailə quran qadınların sayının 313.000, kişilərin sayının isə 334.000 nəfər təşkil etməsinə əsaslanaraq, belə qənaətə gəlir ki, burada problem təkcə boşanmaların özündə deyil, boşanmalar nəticəsində dağılan bir çox evliliklərin yenisinə çevrilməməsindədir [10, s.201]. Fikrinə davam edərək, alim: "Yenidən ailə quranlar arasında dul kişi və dul qadınların ibarət olduğunu da nəzərə alsaq, o zaman məlum olur ki, boşanmaların yarıdan çoxu yeni ailələrin yaranması ilə nəticələnmir" – deyə, yazır. B.Urlanis son yeddi ildə pozulmuş nikahların sayını: 1961-1967-ci illərdə baş verən boşanmaların sayını əks etdirən cədvələ əsaslanaraq təəssüf hissi ilə yazır ki, bəziləri boşanmaların əsasən uşaqsız ailələrdə baş verdiyini iddia edirlər. Lakin bu belə deyildir, təəssüf ki, indi cəmiyyətdə ümumiyyətlə, bu və ya digər səbəbdan baş verən boşanmalara daha çox rast gəlinir [10, s.201].

Qeyd edək ki, B.Urlanis tədqiqatçı demoqraf kimi əhalinin təbii artımının tərəfdarı kimi çıxış edib. Məsələn, O, 1974-cü ildə dərc edilmiş "Birtərəfli hesab" adlı məqaləsində elmi-texniki inqilab dövründə istər təsərrüfat, istərsə də istehsalın demək olar ki,bütün vacib sahələrində işlərin əsasən robot və maşınlar tərəfindən görüləcəyi, deməli insanların əməyinə daha ehtiyacın qalmayacağı səbəbindən əhalinin təbii artımının da lüzumsuz olacağı fikrinə etiraz edərək yazmışdır: "Bəzi insanlar hesab edirlər ki, avtomatlaşdırma və mexanizasiyalaşmanın elmi-texniki inqilab dövründə insanların sayı deyil, keyfiyyəti, yəni ixtisas səviyyəsi vacibdir. Ancaq problemə belə bir baxış yanlışdır. Hər ikisi vacibdir" [12, s.358]. Qeyd edək ki, tarixən iri ərazilərə malik dövlətlərdə əhalinin təbii artımına yönəli demoqrafik siyasət yürüdülmüşdür. Bu ilk növbədə hər biri özünəməxsus təbii-coğrafi xüsusiyyətlərə malik olan, müxtəlif təbii zonaları əhatə edən iri ərazilərə malik dövlətlərin daima yenilənən insan resurslarına, deməli həm də əhalinin təbii artımına olan obyektiv tələbatından irəli gəlir. Məhz bu səbəbdan də, iri ərazilərə malik dövlətlərdə demoqrafik siyasətin hədəfi təkcə indiki və yaxın gələcək deyil, həm də uzaq gələcək olur. Məhz bu nöqteyi-nəzərdən çıxış edən B.Urlanis: "Ən azı yaxın gələcəkdə ölkənin müəyyən bölgələrində əhalinin mütləq sayının azalmasının qarşısını almaq üçün doğum səviyyəsinin artırılması lazımdır". – deyə, söyləyir" [12, s.358].

Ölkəsinin böyük imkanlarını nəzərə alan alim inandırıcı surətdə belə nəticəyə gəlir ki, inkişaf edən mexanizasiyalaşma və avtomatlaşdırma şəraitində belə ölkədə milli gəlirin və əmanətlərin payının artması gələcəkdə çoxlu sayda iş yerlərinin yaranmasına, deməli həm də əhalinin təbii artımına olan tələbatın yüksəlməsinə səbəb olacaqdır. Qeyd etmək yerinə düşərdi ki, B.Urlanis "Əhali artımı və istehsal üsulu", "Yer kürəsi əhalisinin artım sürəti," "Neçə uşağa sahib olmalı?"," Kişiləri qoruyun" və bir çox digər məqalələrində əhalinin təbii artımı ilə bağlı bir çox məsələlərə aydınlıq gətirmişdir [11, 13, 14, 15].

XXI əsrin əvvəlləri Rusiya tarixşünaslığında əhalinin depopulyasiyası ilə bağlı tarixi demoqrafiyanın aktual problemləri. Son onilliklərdə Rusiya əhalisinin depopulyasiyası (depopulyasiya – əhalinin təbii artımının, sayının hər hansı bir yaşayış məntəqəsində, regionda və ya ölkədə hər hansı bir fövqəladə halın baş vermədiyi, yaranmadığı halda) sabit şəkildə azalmasıdır. Başqa sözlə, demoqrafik fazanın əhalinin doğum səviyyəsinin, əhalinin yenilənmə səviyyəsindən aşağı düşməsi ilə fərqlənən keçid mərhələsidir. – A.M.) demoqrafik böhranın əsas təzahür formalarından biri hesab olunur. Bu fenomenin iki izahı var. Bir tərəfdən depopulyasiya proseslərinin səbəbi kimi ilk növbədə ölkədə həyata keçirilən, o qədər də uğurlu olmayan radikal sosial-iqtisadi və siyasi islahatların nəticəsi olduğuna dair məşhur fikir var. Digər tərəfdən, peşəkar demoqraflar, məsələn, A.Vişnevskaya kimi tanınmış alimlər 1990-2000-ci illərin depopulyasiyasını həm Rusiyada, həm də digər ölkələrdə

baş verən ümumi, obyektiv demoqrafik inkişafın qanunauyğunluqları ilə izah edirlər. Onların fikrincə, XX əsrin əvvəllərində Rusiyanın da daxil olduğu əhalinin yüksək təbii artım tempinə malik arxaik aqrar cəmiyyətlər tarixən həmişə yüksək ölüm və çox yüksək doğum nisbətləri ilə xarakterizə olunmuşlar. Lakin, doğum və ölüm nisbətlərinin demək olar ki, bərabər və aşağı səviyyədə olduğu müasir sənaye cəmiyyətlərində əhalinin təbii artım tempi sıfır ətrafında dəyişir. Bu yanaşma ilə ölkədə əhalinin yüksək təbii artım tempinin azalmasında, depopulyasiya proseslərinin baş verməsində köklü islahatların formasından asılı olmayaraq Rusiya islahatçılarının heç bir günahı yoxdur. Doğum nisbətinin dinamikasının tədqiqi göstərir ki, əhalinin yüksək təbii artım tempinin azalması cəmiyyətin sosial-iqtisadi inkişafının ümumi qanunauyğunluqlarından irəli gələn tarixən qaçılmaz, labüd və obyektiv bir prosesdir.

Tanınmış rusiyalı demoqraf-alim A.Vişnevski 1990-2000-ci illərdə həm Rusiyada, həm də digər ölkələrdə baş verən demoqrafik inkişafın ümumi obyektiv qanunauyğunluqlarını təhlil edərkən bütövlükdə dünya əhalisinin azalmağa meylli olması qənaətinə gəlmişdir. Onun fikrincə, XX əsrdə bütövlükdə qlobal miqyasda demoqrafik inkişaf modelində ciddi dəyişikliklər baş verdi. Başqa sözlə, XX əsrin əvvəllərində Rusiyanın da daxil olduğu, yüksək ölüm və yüksək doğum nisbətləri, o cümlədən yüksək təbii artım tempi ilə xarakterizə olunan bir çox arxaik aqrar cəmiyyətlər yeni demoqrafik mərhələyə keçid etdilər. Müasir sənaye/post-sənaye cəmiyyətlərində isə doğum və ölüm nisbəti demək olar ki, bərabər və aşağı səviyyədə olması səbəbindən təbii artım sıfır ətrafında dəyişir. A.Vişnevskinin fikrincə, Rusiyada həyata keçirilən köklü islahatların formasından asılı olmayaraq, əhalinin azalması obyektiv surətdə baş verir [4].

Artıq yuxarıda adı çəkilən bir qisim demoqraflar, o cümlədən M.Tols "Çağdaş Rusiyada əhalinin təbii artımında evliliyin rolu" adlı digər elmi məqaləsində də demək olar ki, problemə eyni mövqedən yanaşır. Məqalədə 1946-2019-cu illərdə Rusiyada bütün doğulanların ümumi sayında nikahdan və nikahdankənar dünyaya gələn uşaqların payının dinamikası araşdırılır. Rusiyada nikahdankənar doğuşların kəmiyyətcə artması və geniş vüsət alması ilk növbədə ailənin təməl prinsiplərin zəifləməsi ilə izah edilir, o cümlədən 1970-2019-cu illərdə digər ölkələrdəki nikahdankənar doğuşların dinamikası ilə müqayisə edilir. M.Tolsun XXI əsrdə sözügedən problemlə bağlı nəşr edilmiş çoxsaylı məqalələrinin (Толц М., Андреев Е., Антонов О. Рождаемость и трансформация института семьи в современной России. // Вопросы статистики, 2005, №7, s. 51-60; Толц М. От абортного термидора к законодательному либерализму. Политика в области брачно-семейных отношений как зеркало истории СССР // Развитие населения и демографическая политика. Сборник статей. Москва, «МАКС Пресс», 2014, s.157-169; yenə onun. Первая Всемирная конференция по народонаселению глазами двух русских участников-эмигрантов // Демографическое обозрение, 2017, Т.4, № 4, s.170-190; yenə onun. О влиянии брачного статуса на рождаемость // Демоскоп Weekly, 2020, № 871- 872; yenə onun. Роль брачности в современной рождаемости в России // Вестник общественного мнения, 2023, № 1-2, s. 49-57) demək olar ki, hamısında XXI əsrin əvvəllərində Rusiyada ölkə əhalisinin məruz qaldığı demoqrafik dəyişikliklər tarixi-demoqrafik müstəvidə çoxsaylı faktlarla elmi-obyektiv müstəvidə ən xırda təfərrüatları ilə tədqiq edilmişdir.

Digər tədqiqatçı S.Zaxarov "Rusiyada əhali artımının tarixi: nəsillərdən-nəsillərə" adlı elmi məqaləsində sözügedən problemlə bağlı yazır: "Təəssüf ki, Vətən demoqrafiyası eyni vaxtda real və şərti nəsillər üçün (qeyd etmək yerinə düşərdi ki, demoqrafiyada nəsil dedikdə eyni vaxtda doğulmuş insanlar başa düşülür. Real nəsil eyni zaman kəsiyində doğulan insanların məcmusudur. Onlara həmyaşıd da deyilir. Şərti və ya hipotetik nəsil dedikdə isə müxtəlif yaşlarda olan, lakin eyni zamanda yaşayan insanların toplusu başa düşülür. Onlara müasirlər də deyilir. – A.M.) səciyyəvi xüsusiyyətlərin istifadəsinə əsaslanan əhalinin təbii artım tempinə dair çoxsaylı tədqiqatları ilə öyünə bilməz [5, s.7]. Müəllif yazır ki, indiyə qədər əhalinin təbii artımı ilə bağlı elmi və publisistik əsərlərin böyük əksəriyyətində, əsasən, qiymətləndirməsini əldə etmək daha asan olan şərti nəsillər üçün ümumi doğum əmsalının (Ümumi doğum əmsalı (ÜDM) dedikdə bir qadının bütün reproduktiv dövr ərzində, yəni 15 ildən 50 yaşa qədər, dünyaya uşaq gətirə bilmə qabiliyyətinə malik olduğu zaman ərzində, orta hesabla neçə üşaq doğa biləcəyini göstərən əmsaldır. – A.M.) illik qeydiyyat məlumatlarından istifadə olunur. Halbuki, ÜDM-lə bağlı nəticələri və onun dinamikasını şərh etmək peşəkar demoqraflar istisna olmaqla ictimaiyyət üçün, real nəslin son doğum nisbətinin göstəricisinə dair nəticələri

şərh etməkdən daha çətin ola bilər. Bu göstərici hətta ailə və demoqrafiya sahəsində müasir Rusiyanın dövlət siyasətinin əsas demoqrafik göstəricisi, hədəfi kimi seçilir. S.Zaxarovun fikrincə, şərti nəsillər üçün əhalinin təbii artımı ilə bağlı son göstəricilərə dair nəticələrlə iş həm xarici, həm də Rusiya təcrübəsində yalnız İkinci Dünya müharibəsindən əvvəl ortaya çıxdı. Rusiya və vaxtı ikən SSRİ-nin tərkibində olan bir çox xalqların əhalisinin təbii artımı ilə bağlı demoqrafik prosesləri Qərb ölkələrində gedən demoqrafik proseslərlə tarixi-demoqrafik müstəvidə müqayisəli təhlil əsasında tədqiq etməyə üstünlük verərək yazır: "Qərb ölkələrində əhalinin təbii artımı ilə bağlı yeni keçid, həmin ölkələrdə sosial inkişafın yeni təkamül mərhələsi ilə eyni vaxtda – 1960-cı illərin sonu və 1970-ci illərin əvvəllərində başladı. Rusiya və keçmiş Şərq Bloku ölkələri isə, ikinci demoqrafik keçid yoluna iki-üç onillik sonra (1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində) qədəm qoydu. Baxmayaraq ki, əhali artımı modelinin transformasiyası prosesində geri qalan ölkələr, o cümlədən Rusiyanın "qabaqcıl" ölkələrə yaxınlaşması çox intensiv şəkildə getsə də məhz bu iki-üç onillik gecikmə səbəbindən təbii ki, bu gün də bu prosesin daha az inkişaf etmiş mərhələlərindədir" [5, s.7]. Zaxarovun fikrincə, əhalinin təbii artım tempi ilə xarakterizə olunan bütün uzunmüddətli prosesləri tarixi-demoqrafik müstəvidə tədqiq etmək, öyrənmək üçün metodoloji cəhətdən ən düzgün demoqrafik yanaşma real nəsillər (qadınları doğum illəri üzrə) və şərti nəsillər üzrə olan göstəricilərdəki (təqvim illəri üzrə) dəyişiklikləri eyni vaxtda, müqayisəli-təhlil əsasında nəzərdən keçirməkdir.

Nəticə. 2005-ci ildən etibarən "Rosstat" (Federal Dövlət Statistika Xidməti – A.M.) hər il Rusiyada nikahların qeydə alındığı il üzrə nikahda doğulanların sayının paylanmasını ehtiva edən cari doğum qeydiyyatının statistik formasını hazırlayır. Hazırda nikahda olanların cari doğum qeydiyyatı hazırlanarkən, doğulanların sayı doğum sırası üzrə deyil, doğumun bioloji ardıcıllığı nəzərə alınmaqla aparılır. Doğum sırası dedikdə uşağın anasından hansı ardıcıllıqla, neçənci uşaqdan sonra dünyaya gəlməsi, doğulduğu sıra nəzərdə tutulur. Adətən bu, yalnız diri doğulanlara şamil edilir. Artıq 2 ilə yaxındır ki, Ukraynada "xüsusi hərbi əməliyyat" keçirən və saysız-hesabsız Qərb sanksiyalarının təzyiqi altında yaşayan Rusiya həm sosial-iqtisadi, həm də siyasi, o cümlədən demoqrafik problemlərlə üzləşməkdədir. Rusiya doğum səviyyəsinə görə dünyada 190-cı yerdə qərar tutduğuna görə narahatçılıq doğuran belə bir vəziyyətin aradan qaldırılması üçün müvafiq tədbirlər görülür. Hətta 2023-cü il sentyabrın 1-dən Rusiyanın Novqorod, Penza və Tambov vilayətləri kimi bir sıra regionlarında doğum səviyyəsinin artırılması üzrə pilot layihəyə start verilib. 31 dekabr 2024-cü il tarixinədək davam edəcək pilot layihə nəticəsində hakimiyyət bu bölgələrdə əlverişli yaşayış mühiti yaratmaqla demoqrafik göstəriciləri yaxşılaşdırmaq niyyətindədir. Bütün bunlar Rusiyada əhalinin depopulyasının aradan qaldırılması istiqamətində həyata keçirilən demoqrafik tədbirlərin daim aktual olduğunu bir daha təsdiq edir.

ƏDƏBİYYAT

1. Бжилянский Ю.А. Некоторые экономические проблемы управления развитием народонаселения. Управление демографическими процессами. Москва, «Статистика», 1980, 119 с.
2. Вишневский А.Г. Избранные демографические труды. В 2 томах. Том 1. Москва, «Наука», 2005, 368 с.
3. Волков А.Г. Семья – объект демографии. Москва, «Мысль», 1986, 270 с.
4. Демографическая модернизация России 1900-2000. Москва, «Новое издательство», 2006, 608 с.
5. Захаров С.В. История рождаемости в России: от поколения к поколению. Демографическое обозрение, №10(1), 2023, с.4-43.
6. Ильина И.П. Влияние войн на брачность советских женщин / Брачность, рождаемость, смертность в России и в СССР: Сборник статей. Под ред. А.Г.Вишневского. Москва, «Статистика», 1977, 247 с.
7. История СССР. Эпоха социализма. под ред. Ю. С. Кукушкина. Москва «Просвещение», 1989, 479 с.
8. Тольц М.С. Брачность населения России в конце XIX-начале XX в. // Брачность, рождаемость, смертность в России и в СССР / под ред. А.Г. Вишневского. Москва, «Статистика», 1977, 247 с.

9. Тольц М.С., Дарский Л.Е., Ильина И.П. Изменения в брачности и их влияние на рождаемость // Воспроизводство населения СССР. Под ред. А.Г.Вишневского и А.Г. Волкова. Москва, «Финансы и статистика», 1983, 303 с.
10. Урланис Б.Ц. Безотцовщина / Избранное. Москва, Мысль, 1985, 226 с.
11. Урланис Б.Ц. Берегите мужчин! / Народонаселение, Исследования, Публицистика Москва, Статистика,1976, 359 с.
12. Урланис Б.Ц. Однобокая арифметика / Народонаселение, Исследования, Публицистика. Москва, Статистика,1976, 359 с.
13. Урланис Б.Ц. Рост населения и способ производства / Народонаселение, Исследования, Публицистика Москва, Статистика,1976, 359 с.
14. Урланис Б.Ц. Сколько надо иметь детей? / Народонаселение, Исследования, Публицистика. Москва, Статистика,1976, 359 с.
15. Урланис Б.Ц. Ускорение роста населения Земного шара/Народонаселение, Исследования, Публицистика. Москва, Статистика, 1976, 359 стр.
16. Шелестов Д.К. Историческая демография. Москва, «Высшая школа», 1987, 288 с.
17. Шелестов Д.К., Минаев В.В. Взрыв или катастрофа? / Родина, № 10, 1996, с.86-89.

АЙДЫН МАМЕДОВ
Доцент кафедры «Источниковедения, историографии и методики» Бакинского Государственного Университета, доктор философии по истории

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ СВЯЗАННЫЕ СО СНИЖЕНИЕМ ЕСТЕСТВЕННОГО ПРИРОСТА НАСЕЛЕНИЯ В РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XX – НАЧАЛЕ XXI ВЕКА

Семья является основным ядром общества, важнейшим социальным институтом. Неслучайно рождение детей в каждой семье является основной составляющей динамики естественного прироста населения. Характер воспроизводства населения во многом определяется уровнем рождаемости, национально-нравственными ценностями каждого народа, в том числе историческими традициями. С другой стороны, уровень естественного прироста населения в обществе, образование детей, их рост в здоровой среде без какого-либо психологического ущерба, уровень успешной интеграции в общество, а также общее благополучие жизни непосредственно зависит от прочности семейных отношений и брачных уз. К сожалению, начиная со второй половины XX века, значительный рост числа разводов, подрывающих основные устои семьи, а в последнее время широкое распространение, значительное ослабление внутрисемейных отношений, привели к возникновению серьезных проблем в деле обеспечения естественного прироста населения.

Ключевые слова: семья, рост населения, депопуляция, историческая демография, российская историография.

AYDIN MAMMADOV
Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, PhD in History

ACTUAL PROBLEMS OF HISTORICAL DEMOGRAPHY RELATED TO THE DECREASE IN THE NATURAL GROWTH RATE OF THE POPULATION IN RUSSIAN HISTORIOGRAPHY IN THE SECOND HALF OF THE XX CENTURY – THE BEGINNING OF THE XXI CENTURY

Family is the main core of society, the most important social institution. It is no coincidence that the birth of children in every family is the main component of the dynamics of natural population growth. The nature of the reproduction mode of the population is mainly determined by the level of birth and the national and moral values of each nation, including historical traditions. On the other hand, the level of natural population growth in the society, the education of children, their

growth in a healthy environment without any psychological damage, the level of successful integration into society, as well as the general well-being of life directly depends on the strength of family relations and marriage bonds. Unfortunately, starting from the second half of the XX century, a significant increase in the number of divorces that undermine the basic principles of the family, and recently, a wide spread, a significant weakening of intra-family relations, have led to the emergence of serious problems in the matter of ensuring the natural growth of the population.

Keywords: family, population growth, depopulation, historical demography, Russian historiography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 oktyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.